# Doğma yurda doğru

## *Cocuq Mərcanlı işğaldan əvvəlki həyatına qayıdır*

Çox keçməyəcək ki, Qarabağın bir obası həsrətini çəkdiyi doğma yurda qovuşacaq. Bu, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndidir. Prezident İlham Əliyevin "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" sərəncamı bu kəndin əhalisinin erməni təcavüzündən əvvəlki həyatına qayıtmasına şərait yaradır. Dövlət başçısının sərəncamına uyğun olaraq, kəndin bərpası ilə bağlı görüləcək işlər çərçivəsində birinci mərhələdə 50 fərdi yaşayış evinin, məktəb binasının və müvafiq infrastrukturun tikintisi planlaşdırılır. Bu məqsədlə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan ilkin olaraq 4 milyon manat pul ayrılacaq.

Beləliklə, Cocuq Mərcanlının bərpası istiqamətində ilk addım atılır. Prezidentin sərəncamında qeyd olunduğu kimi, söhbət bu kənddə normal həyatı canlandırmağın yalnız ilk mərhələsindən gedir. Dövlət başçısı səlahiyyətli orqanlara kəndin masterplanının hazırlanması barədə göstəriş vermişdir. Gələcəkdə Cocuq Mərcanlıda lazımi qədər yaşayış evi tikiləcək, sosial obyektlər inşa olunacaq, zəruri infrastruktur yaradılacaq, sakinlər üçün iş yerləri açılacaq və nəticə etibarilə kəndin bərpası tamamilə başa çatacaq.

Görüləsi işlər çoxdur. Erməni vəhşiliyi düşmən əlinə keçmiş yurd yerlərimiz kimi Cocuq Mərcanlıdan da yan keçməmişdir. İşğaldan qabaq bu kənddə 1075 nəfər yaşayırdı. İndi isə əhalinin sayı 1400 nəfərdən çoxdur. Vaxtilə burada 395 ev təsərrüfatı mövcud idi. Kəndin ərazisində orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi, poçt və bir sıra digər inzibati binalar vardı. Əhali əsasən üzümçülük, taxılçılıq, heyvandarlıq və baramaçılıqla məşğul olurdu. Cocuq Mərcanlı erməni işğalı altında olmuş cəmi iki ay yarım müddət ərzində xarabaya dönmüşdür. Düşmən yaşayış evlərini, inzibati binaları, kəndin təsərrüfatını, bütün infrastrukturunu tamamilə dağıtmışdı.

1993-cü il oktyabrın 23-də Ermənistan silahlı qüvvələri Cəbrayıl rayonunun Araz çayının sahilində yerləşən son kəndlərini, o cümlədən Cocuq Mərcanlını işğal etdi. Həmin ilin dekabrında ulu öndərin rəhbərliyi ilə ordumuzun Horadiz əməliyyatı başladı. Qoşunlarımız düşmənin Beyləqan istiqamətində hücumunu dayandıraraq əks-hücuma keçdi və Füzuli rayonu ərazisinin içərilərinə doğru irəlilədi. Erməni təcavüzkarları Azərbaycan əsgərinin sarsıdıcı zərbələrinə davam gətirməyib çoxsaylı itkilər verərək geri çəkilməyə məcbur oldular. Ordumuzun 1994-cü il yanvarın 6-dək davam etmiş Horadiz əməliyyatı zəfərlə başa çatdı: Füzuli rayonunun Arazboyu kəndləri, eləcə də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi azad edildi. Sonrakı illərdə Füzuli rayonunun işğaldan qurtulmuş kəndləri bərpa olundu, əhali ev-eşiyinə qayıtdı, normal həyat bərpa edildi. Lakin sakinlərin Cocuq Mərcanlıya qayıtması mümkün olmadı. Kənd ordumuzun nəzarəti altında olsa da, əhalinin təhlükəsizliyini təmin etmək imkan xaricində idi. Çünki yaşayış məntəqəsinin yaxınlığındakı strateji yüksəklik - Lələtəpə düşmənin əlində idi. İşğalçılar bu yüksəklikdə mövqe tutaraq təkcə Cocuq Mərcanlını yox, həm də ətraf əraziləri atəş altında saxlayırdılar.

Belə bir şəraitdə düşməni Lələtəpədən vurub çıxarmaqdan başqa yol yox idi. Ötən il aprel döyüşləri zamanı ordumuz bu vəzifəni uğurla həyata keçirdi. O vaxt Ermənistan silahlı qüvvələri cəbhə xəttində atəşkəsi pozub bir-birinin ardınca təxribatlar törədir, cəbhəyanı ərazidə yaşayan dinc əhalinin təhlükəsizliyini təhdid edirdi. Təbii ki, düşmənin bu hərəkətləri cavabsız qala bilməzdi. Ordumuz əks-hücumu ilə düşməni yerində oturtdu. Uğurlu əməliyyatın gedişində Silahlı Qüvvələrimiz Füzuli, Cəbrayıl və Ağdərə rayonlarında ərazinin bir hissəsini işğaldan azad etdi. Lələtəpə yüksəkliyi uğrunda da şiddətli döyüş getdi. Bu döyüş sözün həqiqi mənasında hərbi qəhrəmanlıq nümunəsi idi. Azərbaycan əsgəri növbəti zəfərə imza atdı. Ordumuz Lələtəpəni azad etmək üçün düşmənə əlverişsiz mövqedən hücum edirdi. İşğalçılar strateji üstünlükdən istifadə edərək ciddi müqavimət göstərirdilər. Buna baxmayaraq, Azərbaycan əsgəri qətiyyətli idi, çünki vətən torpağının bir parçasını düşmən caynağından qurtarmaq kimi müqəddəs vəzifəni həyata keçirirdi. Nəhayət, erməni işğalçıları ordumuzun zərbələrinə tab gətirə bilməyib geri çəkilmək məcburiyyətində qaldılar. Düşmənin müqaviməti qırıldı və Lələtəpə azad oldu. Bununla Azərbaycan əsgəri Ermənistan ordusunun yenilməzliyi barədə yayılan mifləri puça çıxardı, işğal altında olan torpaqlarımızı azad etmək əzmində olduğunu nümayiş etdirdi. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi, "Dünya bir daha gördü ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti ilə heç vaxt barışmayacaq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bu bizim əzəli torpağımızdır, tarixi torpağımızdır və biz işğal altında olan bütün torpaqlarımıza qayıdacağıq. Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir və tarixə düşdü. Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaq".

Azərbaycan Ordusunun şücaəti və onun Ali Baş Komandanının qətiyyəti sayəsində bu gün bir yurd yerimizdə - Cocuq Mərcanlıda həyat normal axarına qayıdır. Kəndin təhlükəsizliyi tamamilə təmin olunmuşdur. Bundan sonra erməni təcavüzkarları əvvəlki kimi cürbəcür təxribatlar törədə bilməyəcəklər.

Əhali Cocuq Mərcanlıya qayıtmağı səbirsizliklə gözləyir. Məcburi köçkün həmvətənlərimiz doğma torpaqda məskunlaşmaq arzusundadırlar. Dövlət başçısı sözügedən sərəncamı verəndən dərhal sonra Cocuq Mərcanlının 200-dək sakini kəndə qayıtmaq üçün müraciət etmişdir. Belə müraciətlər artmaqda davam edir. Özü də bu, düşmən tapdağından xilas olmuş bir kəndə qayıdış deyil. Cocuq Mərcanlı Dağlıq Qarabağ və erməni təcavüzünə məruz qalmış digər torpaqlarımıza dönüşün müjdəçisidir.

Bəli, Ermənistanın silahlı təcavüzü nəticəsində yurd-yuvalarından didərgin düşmüş azərbaycanlılar ata-baba torpaqlarına qayıdırlar. Böyük qayıdış yolunda ilk addımı Cocuq Mərcanlı sakinləri atırlar. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Cocuq Mərcanlı kəndinin yenidən qurulması çox böyük rəmzi məna daşıyır. Bu, tarixi hadisədir. Biz işğaldan azad edilmiş kəndə sakinləri qaytarırıq".

Bu gün xalqın qəhrəman ordumuza və onun Ali Baş Komandanına inamı son dərəcə böyükdür. İnam varsa, düşmən üzərində həlledici qələbə də uzaqda deyil!

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2017.- 2 fevral.- S.2.